# QULİYEV NAZİM QABİL OĞLU



Quliyev Nazim Qabil oğlu 7 fevral 1965-ci ildə Beyləqan rayonunun Örənqala kəndində doğulmuşdur. 1982-ci ildə kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır. Hərbi hissədə nümunəvi xidmətini görüb onu 6 aylıq hərbi məktəbə göndərirlər. O, xidmətini başa vurub doğma yurda qayıdır və 2 saylı şərab zavoduna işə qəbul olunur. 1988-ci ildə Qarabağ münaqişəsi başlayanda silaha sarılaraq özünümüdafiə dəstələrindən birinin tərkibində döyüşlərə atılır. 1991-ci ilin aprel ayında Füzuli rayon Polis Şöbəsində təşkil olunan post-patrul rotasına sıravi polis kimi işə qəbul olunur. O, Füzuli bölgəsində yerləşən kəndlərin müdafiəsi uğrunda gedən döyüşlərin əksəriyyətində iştirak edir, mülkü əhalinin təhlükəsizliyinin təmin edilməsində xüsusi şücaət göstərir, yaralıların təcili olaraq xəstəxanalara çatdırılmasında əlindən gələni əsirgəmirdi. Nazim Quliyev bütün tapşırıqları layiqincə yerinə yetirdiyinə görə polis starşinası rütbəsi alır və bölmə komandiri təyin edilir. O, Cuvarlı, Tuğ, Məlikcan, Arış, Divanallar kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuşdu. 9 yanvar 1992-ci ildə Köşbək kəndi uğrunda gedən döyüşlərdə 7 əsgərimiz mühasirədə qalmışdı. Nazim Quliyev dəstəsi ilə özünü ora çatdırır. Gərgin keçən döyüşdə düşmən geri otuzdurulur və əsgərlər mühasirədən çıxarılır. Bunun ardınca yeni bir tapşırıq alır. O, vaxt itirmədən idarə etdiyi BTR-i (zirehli döyüş maşını) işə salaraq birbaşa düşmən üzərinə sürür. İlk həmlədə ermənilərin 2 əsas döyüş nöqtəsi susdurulur. Bununla da mühasirədə qalmış hərbi texnikanı azad etmək mümkün olur. Lakin özü bu döyüşdə qəhrəmancasına həlak olur. Füzuli rayonu ərazisində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Quliyev Nazim Qabil oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. 1994-cü ildən etibarən doğulduğu Örənqala kənd orta məktəbi Milli Qəhrəmanın adını daşıyır.